# VİLAYƏTİ-FƏQİH

**MÜƏLLİF:**
**ƏLİRZA MƏSUDİAN**

# Vilayəti-Fəqih

Kitabın adı: Vilayəti-Fəqih

Müəllif: Əlirza Məsudian

Nəşriyyat: Həzrət Mehdinin (ə.c) Mədəniyyət Fondu Nəşriyyatı

Çap: Birinci nəşr / 1391 (hicri-şəmsi)

ISBN: 978-600-6262-63-5

Tiraj: —

Qiymət: —

Bütün hüquqlar © qorunur.

Qum ofisi:

Həzrət Mehdinin (ə.c) Mədəniyyət Fondu Nəşriyyatı, Məhdəviyyət üzrə İxtisas Mərkəzi, Şəhidlər küçəsi, Amar küçəsi (22), Şəhid Əliyan dalanı.

Poçt indeksi: 37135-119

Mobil: 09109678911

Telefon: 7737801  Faks: 7737160

**Tehran ofisi:**

**Həzrət Mehdinin (ə.c) Mədəniyyət Fondu**

**Telefon: 88959049**

**Faks: 88981389**

**Poçt indeksi: 15655-355**

**Vebsayt: www.imammahdi-s.com**

**E-poçt: info@imammahdi-s.com**

# Ön söz

Bu əsərin hazırlanmasında əməyi keçən bütün həmkarlarımıza təşəkkür və minnətdarlığımızı bildiririk: Hörmətli Kitab Şurasının üzvləri – höccətül-islam Müctəba Kəlbasi, Məhəmmədsabir Cəfəri, Məhdi Yusifiyan, Məhəmmədrza Fuadiyan;

Eləcə də cənablar Əhməd Məsudian (daxili işlər müdiri), Abdullah Şərifi (satış müdiri), Mürtəza Daneştələb (maliyyə müdiri), Rza Fəridi (səhifə tərtibatçısı), Abbas Fəridi (üz qabığı dizayneri) və bizə yardım edən bütün şəxslər.

Həzrət Mehdinin (əc) Mədəniyyət Fondu Nəşriyyatının məsul müdiri: Hüseyn Əhmədi

Kitabı tərcümə etdi – T.C.

## 1) Vilayəti-Fəqih anlayışı

A) Vilayəti-fəqih anlayışının əsasını təşkil edən mühüm həqiqət budur ki, tarix boyu bütün peyğəmbərlərin ortaq məqsədi cəmiyyətdə saleh insanların hakimiyyətini qurmaq olmuşdur. Ayətullahul-uzma Məkarim Şirazi "Təfsir-i Nümunə"də, Nur surəsinin 59-cu ayəsinin təfsirində qeyd edir ki, tərbiyə və davamlı təbliğ yolu ilə müəyyən bir qrupun haqqı dərk etməsi mümkündür, lakin bu dərk və istiqamət bütün cəmiyyətə yayılmır, əgər imanlı və saleh insanların hakimiyyəti qurulmasa. Buna görə də böyük peyğəmbərlərin əsas hədəfi belə bir hökumət qurmaq olmuşdur. Xüsusilə də Peyğəmbər (s) Mədinəyə hicrət edər-etməz ilk fürsətdə bu hökumətin nümunəsini yaratdı. **(Təfsir-i Nümunə, c.14, s.532).**

B) Quranda hökumətin zərurəti açıq şəkildə vurğulanır. Allah buyurur ki, peyğəmbərlər açıq dəlillərlə göndərilmiş, onlarla birlikdə kitab və

haqq-batili ayıran ölçü nazil edilmişdir ki, insanlar ədaləti bərqərar etsinlər **(Hədid, 25).** Bu ayə göstərir ki, peyğəmbərlərin göndərilməsinin və səmavi kitabların nazil edilməsinin əsas məqsədi cəmiyyətlərdə ədalətin hakim olmasıdır. Ədalətin bərqərar olması isə zalımların və tağutların aradan qalxması ilə mümkündür və bu da yalnız ədalətli bir hökumətin qurulması ilə reallaşır.

C) Vilayətin dini əsaslarından biri də Nisa surəsinin 59-cu ayəsidir. Ayədə iman gətirənlərə Allahı, Peyğəmbəri və “əmr sahiblərini” itaətlə qəbul etmək əmr edilir **(Nisa, 59).** Bu ayədə Peyğəmbərə və “ulul-əmr”ə itaətin vacibliyi onların Allah tərəfindən təyin olunmuş rəhbərlər olduğuna dəlalət edir. Ayətullahul-uzma Subhani bu ayənin təfsirində bildirir ki, itaətin vacibliyi onların Allah tərəfindən müəyyən bir məqam üçün təyin olunduğunu göstərir. **(Məbaniye Hökuməte İslami, s.106).**

Ç) Əllamə Təbatəbai “Əl-Mizan” təfsirində qeyd edir ki, Allahın vilayəti (yəni Allahın bəndələrinə

rəhbərliyi və onları din vasitəsilə tərbiyə etməsi) Peyğəmbərin vilayəti olmadan tamamlanmır. Peyğəmbərin vilayəti də onun vəfatından sonra "ulul-əmr"in vilayəti olmadan davam edə bilməz. Bu isə Allahın izni ilə ümmətin tərbiyəsini və idarəsini davam etdirən rəhbərlərin zərurətini göstərir. **(Əl-Mizan tərcüməsi, c.5, s.291).**

D) Vilayətin Qurandakı digər əsaslarından biri də Əhzab surəsinin 6-cı ayəsidir. Ayədə bildirilir ki, Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır **(Əhzab, 6)**. İmam Məhəmməd Baqir (ə) bu ayənin təfsirində buyurur ki, ayə hökumət barəsində nazil olmuşdur **(Məcməul-Bəhrəyn, s.457).** Bu ayə açıq şəkildə göstərir ki, Peyğəmbər Allah tərəfindən hakim olaraq təyin edilmişdir və Allah onu insanların canları və malları üzərində ixtiyar sahibi etmişdir ki, o, bu ixtiyardan ədalətin bərpası və cəmiyyətin islahı üçün istifadə etsin.

E) Qədir-Xum hadisəsinə əsasən, Peyğəmbər (s) ümmətin özündən sonra rəhbərlik boşluğu hiss etməməsi üçün Allahın əmri ilə Qədir-Xum

səhrasında İmam Əlini (ə) insanların rəhbəri və öncülü kimi tanıtdı. Allah tərəfindən nazil edilən və Peyğəmbərə çatdırılan iki mühüm ayənin məzmunu da həmin gün camaata elan edildi. Peyğəmbər (s) İmam Əlini (ə) Allahın seçdiyi rəhbər kimi təqdim etdi, insanları onun rəhbərliyini qəbul etməyə çağırdı və onları ona itaət etməyə əmr etdi. “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır” hədisi də məhz bu böyük təyin etmənin açıq və qəti ifadəsidir; bu hədislə Peyğəmbər (s) ümmətə bildirdi ki, özündən sonra rəhbərlik və vilayət məhz Əliyə (ə) məxsusdur və ümmətin hidayəti onun ardınca getməklə davam edəcəkdir.

## 2) Vilayəti-Fəqihin tərifi

A) Vilayəti-fəqih anlayışında “vilayət” ölkənin idarə olunması, cəmiyyətin təşkil edilməsi və şəriət qanunlarının icrası mənasını daşıyır. Başqa sözlə, burada müzakirə olunan vilayət, cəmiyyətin idarəsi və hökumətin qurulması

deməkdir **(İmam Xomeyni, Vilayəti-Fəqih, s.51).** Fəqih isə o şəxsdir ki, dini dərindən tanıyır, dinin insanlara dünya və axirət səadətinə aparan yol kimi təqdim etdiyi proqramı bilir və onu cəmiyyətin qarşısına qoyur **(İmam Xamenei, çıxış — 15 Şəban 1371)**.

B) Vilayəti-fəqih, düşüncə, iman və cəmiyyətə hakim olan ideologiya baxımından öz dövrünün ən bilikli və ən layiqli insanının hakimiyyəti deməkdir. Belə bir insan cəmiyyəti həm maddi, həm də mənəvi tərəqqiyə, nicata və kamala çatdırmaq gücünə malikdir. **(İmam Xamenei, 19/4/65).**

C) Vilayəti-fəqihin nəqli dəlilləri iki qismə ayrılır: Qurani dəlil və rəvayi dəlil. Qurani dəlillərdən biri Maidə surəsinin 44-cü ayəsidir. Ayədə bildirilir ki, Allah Tövratı hidayət və nur olaraq nazil etdi və peyğəmbərlər, rəbbani rəhbərlər və alimlər onunla hökm edirdilər **(Maidə, 44).** İmam Sadiq (ə) bu ayənin təfsirində buyurur ki, ayədə adı çəkilən bu qruplar Allah tərəfindən hökumət qurmaq üçün icazə verilmiş və bu işə layiq

görülmüş şəxslərdir. Ayədəki “alimlər” isə üçüncü qrup olaraq təqdim olunur və onlar peyğəmbərlərdən və rəbbani rəhbərlərdən ayrı bir zümrədir **(Bürhan fi Təfsiril-Qur’an, c.2, s.306; Təfsir-i Əyyaşi, c.1, s.323).**

Bu təfsir göstərir ki, ilahi hökumətin davamı üçün elm və dində ixtisas sahibi olan şəxslər Allah tərəfindən bu işə layiq görülmüşdür.

D) Rəvayi dəlillər içində ən məşhurlarından biri “Məqbuleyi Ömər ibn Hənzələ”dir. Ömər ibn Hənzələ nəql edir ki, iki nəfər şiə arasında yaranmış bir mübahisə barədə İmam Sadiqdən (ə) soruşduqda, İmam (ə) zalım hakimlərin yanına müraciəti qadağan etdi və belə qazancın, hətta haqq olsa belə, haram olduğunu bildirdi. Ardınca İmam (ə) doğru yolu göstərərək buyurdu ki, baxın görün aranızda kim bizim hədislərimizi rəvayət edir, halal və haramımızı araşdırıb dərk edib, hökmlərimizi tanıyır; belə bir şəxsi hakim (qazi, hüquqi hökm verən) və hakəm (fiqh və rəvayət mətnlərində hökm verən, qərar çıxaran, mübahisələri həll edən və dini-hüquqi

səlahiyyətə malik şəxs) olaraq qəbul edin, çünki mən onu sizin üzərinizə hakim təyin etmişəm **(Kafi, c.1, s.67).**

Bu ifadə ("mən onu sizin üzərinizə hakim qərar verdim") açıq şəkildə göstərir ki, İmam (ə) dini bilikdə ixtisaslı olan şəxsləri ümumi şəkildə hakimlik məqamına təyin etmişdir. Beləliklə, İmamın (ə) təyin etdiyi bir fəqih öz vəzifəsini imamın göstərişlərinə uyğun şəkildə yerinə yetirdiyi müddətdə ona itaət etmək vacib olur və bu itaət, əslində, İmama (ə) itaət hökmündədir. Bu cümlə ümumi şəkildə fəqihlərin vilayətə təyin olunduğunu göstərir və onların hökmü, imamın hökmü kimi qəbul edilir.

E) Töqiəyi-şərifdə İmam Məhdi (ə) belə buyurur: "Baş verən hadisələr və yeni ortaya çıxan məsələlərdə bizim hədislərimizi rəvayət edənlərə müraciət edin, çünki onlar mənim sizə qarşı höccətimdir və mən də Allahın höccətiyəm." **(Şeyx Səduq, Kəmalud-din, c.2, s.483).** Burada işlənən "hadisələr və baş verən yeni məsələlər" ifadəsi lüğəvi və terminoloji

baxımdan yalnız fiqhi hökmlər mənasında deyil; əksinə, daha geniş məna daşıyır və mütləq şəkildə ictimai, siyasi, iqtisadi və ümumi idarəçiliklə bağlı bütün problemləri də əhatə edir. Buna görə də İmam (ə) İshaq ibn Yəqubun sualına cavab olaraq bildirmişdir ki, qeybət dövründə İslam cəmiyyətinin qarşılaşdığı ictimai və ümumi problemlərdə müsəlmanların vəzifəsi imamların hədislərini bilən və onları dərk edən alimlərə müraciət etməkdir **(Ayətullah Misbah, Neqahi qozar be nəzəriyeyi vilayəti-fəqih, fəsil 4, s.96).**

Ə) Şeyx Ənsarinin töqiəyi-şərif haqqında nəzərinə görə, hədisdə işlənən "hadisələr" kəlməsi şəxsi fiqhi məsələlərə (məsələn, vacib və haram kimi fərdi hökmlərə aid deyil); əksinə, cəmiyyətin rəhbəri və zəmiməsinə bağlı olan ümumi və ictimai məsələlər nəzərdə tutulur. Çünki "hadisə" sözü lüğəvi olaraq geniş miqyaslı, ictimai və ümumi hadisələri ifadə edir. Buna görə də İmam (ə) buyurmuşdur: "Bu hadisələrdə onlara müraciət edin", amma

“hökmlərini onlardan soruşun” deməmişdir. Bu da göstərir ki, söhbət fərdi fiqhi məsələlərdən deyil, ictimai idarəçiliklə bağlı məsələlərdən gedir. İmam Məhdi (ə) həmin töqiədə “onlar mənim sizə qarşı höccətimdir” buyurmaqla, bu şəxslərin İmam tərəfindən verilmiş vilayət və rəhbərlik məqamına sahib olduqlarını göstərir. Həmçinin şəxsi fiqhi məsələlərdə alimlərə müraciət etmək onsuz da birmənalı şəkildə məlumdur və İshaq ibn Yəqub kimi bir şəxs üçün belə bir sual vermək ehtimalı çox uzaqdır **(Məkasibul-muhərrəmə, s.154).**

Töqiəyi-şərifin vilayəti-fəqihlə əlaqəsi də buradan aydın olur. Burada “rəvayətçi” sadəcə hədis əzbərləyən şəxs deyil; əksinə, elmini Əhli-beyt (ə) hədislərindən alan, onların sözlərini dərk edən və yeni ortaya çıxan məsələlərdə hökm çıxarmaq gücünə malik olan alim nəzərdə tutulur. Çünki yeni hadisələr barədə xüsusi hədis mövcud deyil ki, rəvayətçi onu olduğu kimi nəql etsin. Belə olan halda rəvayətçi, yəni fəqih, mövcud hədislərdən hökm

çıxarmalı və elə bir nəticə təqdim etməlidir ki, əgər İmam (ə) hazır olsaydı, həmin hökmü verərdi. Heç kəs də sadəcə hədis əzbərləyən bir şəxsdən yeni hadisələrə dair hökm nəql etməsini gözləmir. **(Ayətullah Salehi Mazandarani, Məbani-ye vilayəti-fəqih, s.289).**

Bu məna digər hədislərlə də təsdiqlənir. İmam Hüseyn (ə), atasından (İmam Əlidən (ə) nəql edir ki: "İşlərin və İslam hökmlərinin idarəsi Allahı tanıyan, Onun halal və haramına əmanətdar olan alimlərin əlindədir." **(Tuhəful-uqul, s.238).** Bu hədis açıq şəkildə göstərir ki, cəmiyyətin idarəsi və hökmlərin tətbiqi ilahi alimlərin (yəni şərtləri kamil olan fəqihin) öhdəsinə verilmişdir. "İşlərin axarı" ifadəsi isə cəmiyyətin gündəlik idarəçiliyində vilayətin tətbiqinə işarə edir. Başqa bir hədisdə Əmirəl-möminin (ə) nəql edir ki, Peyğəmbər (s) üç dəfə belə buyurdu: "Allah mənim xələflərimə rəhm etsin." Soruşuldu ki, "Sənin xələflərin kimlərdir?" Peyğəmbər (s) cavab verdi: "Məndən sonra gələn, hədis və

sünnəmi nəql edən və onu insanlara öyrədən şəxslər.” **(Uyunu əxbari’r-Rza, c.2, s.37).**

İmam Xomeyni bu hədis barədə bildirir ki, hədisin vilayəti-fəqihə dəlaləti açıqdır; çünki “xəlifəlik” peyğəmbərin bütün işlərində onun yerinə keçmək deməkdir. **(Vilayəti-fəqih, s.67).**

## 3) Vilayəti-Fəqihin əqli cəhətdən isbatı

Ağılın hökmünə görə vilayəti-fəqihin sübutu üçün bir neçə əsaslı dəlil mövcuddur.

A) Birinci dəlil ilahi qanunun və onun icraçısının zərurətidir. Sağlam ağıl göstərir ki, insanın səadəti qüsursuz və kamil bir qanuna əməl etməklə mümkündür, lakin insan özü təkbaşına belə bir qüsursuz qanun tərtib etməkdən acizdir. Bu səbəbdən Allah insanlara kamil bir insan olan Peyğəmbər (s) vasitəsilə ilahi qanunu təqdim etmişdir. Bununla belə, qanun nə qədər mükəmməl olsa da, icra olunmadıqca təsir göstərməz və icrası da səhvsiz olmalıdır; çünki səhvlə icra olunan qanun fayda verməz. Bu

səbəbdən Allah qanunun səhvsiz tətbiqi üçün əvvəlcə Peyğəmbəri (s), sonra isə məsum imamları (ə) təyin etmişdir. Ağıla və ilahi hikmətə uyğun deyil ki, məsum imamın qeybət dövründə müsəlmanlar rəhbərsiz qalsın və şəriət vilayətsiz buraxılsın. Buna görə nəticə budur ki, elm, ədalət, təqva və idarəçilik baxımından İmama (ə) ən yaxın olan şərtləri kamil fəqihlər, İmam Zamanın (ə) naibi olaraq qeybət dövründə İslam cəmiyyətinə rəhbərlik etmək üçün təyin olunmuşlar. **(Ayətullah Cəvadi Amuli, Vilayəti-Fəqih, s.213; Ayətullah Məkarim Şirazi, Ənvarul-Fəqahə, c.1, s.454).**

B) İkinci dəlil hökumətin mahiyyəti ilə bağlıdır. Hökumətlər iki növdür: ilahi hökumət (məsələn, İslam hökuməti) və qeyri-ilahi hökumət (məsələn, marksist sistem). Hər iki növdə uğurlu rəhbər o şəxsdir ki, öz cəmiyyətinin inancını və vəziyyətini dərindən tanısın. Qeyri-ilahi hökumətlər müzakirəmizin mövzusu deyil, çünki biz müsəlman olaraq ilahi hökumətə inanırıq. İslam hökumətində isə rəhbərin həm dini tam

şəkildə bilməsi, həm də siyasət və idarəçilik sahəsində yetkin olması zəruridir. Buna görə də qeybət dövründə İslam hökumətinin rəhbəri yalnız şərtləri kamil olan fəqih ola bilər. **(Ayətullah Məkarim Şirazi, Ənvarul-Fəqahə, c.1, s.454).**

C) Üçüncü dəlil bir neçə məntiqi müqəddiməyə əsaslanır.

**Birinci müqəddimə**: Fərdi və ictimai mənafelərin təmin olunması və qarışıqlığın qarşısının alınması üçün hökumət mütləq lazımdır. İmam Əli (ə) buyurur: "İnsanlar üçün hökmən bir rəhbər lazımdır - istər saleh olsun, istər fasiq." **(Nəhcül-Bəlağə, xütbə 40).**

**İkinci müqəddimə**: ən üstün hökumət, başında kamil insan (məsum imam ə.s) olan hökumətdir.

**Üçüncü müqəddimə**: əqli qaydaya görə, bir məsləhətin ən kamil şəkildə təmin olunması mümkün olmadıqda, ona ən yaxın olan mərhələ təmin edilməlidir. Yəni, əgər ən yaxşısı mümkün deyilsə, ona ən yaxın olanı seçmək lazımdır.

Sadə bir misal – Tutaq ki, bir xəstə üçün ən yaxşı həkim ölkədə yoxdur, amma xəstəlik ciddi olduğuna görə həkimə müraciət etmək mütləqdir. Bu halda insan ən yaxşı həkimi gözləməz, ona ən yaxın səviyyədə olan, savadlı və təcrübəli həkimə üz tutur. Çünki xəstə həkimsiz qala bilməz; ən yaxşısı əlçatan deyilsə, ona ən yaxın olan seçilir. Vilayəti-fəqih məsələsində də məntiq eynidir: ən kamil rəhbər məsum imamdır, lakin o, qeybətdədir və birbaşa əlçatan deyil. Bununla belə, cəmiyyət rəhbərsiz qala bilməz. Buna görə də elm, təqva və idarəçilik baxımından İmama ən yaxın xüsusiyyətlərə malik olan fəqih, qeybət dövründə rəhbərlik və vilayət üçün ən münasib şəxs sayılır **(mütərcimdən).**

**Dördüncü müqəddimə**: İmama (ə) yaxınlıq üç əsas xüsusiyyətdə təcəlli edir - İslam hökmlərini bilmək (fəqihlik), nəfsani istəklərin təsirinə düşməyəcək mənəvi və əxlaqi yetkinlik (təqva) və cəmiyyəti idarə etmək bacarığı (idarəçilik və tədbir). Bu müqəddimələrdən çıxan nəticə

budur ki, məsum imamın (ə) qeybət dövründə yalnız şərtləri kamil olan fəqih hakimiyyət haqqına malikdir və belə bir fəqih mövcud olduğu halda başqasının hakimiyyəti legitim sayıla bilməz. **(Ayətullah Misbah Yəzdi, Neqahi qozar be nəzəriyeyi vilayəti-fəqih, s.90).**

## 4) Fəqihlərin düşüncəsində vilayəti-fəqih nəzəriyyəsinin möhkəm əsası

Vilayəti-fəqih mövzusu İslam fiqhində ən aydın və ən sabit məsələlərdən biridir və böyük qeybətin başlanğıcından bu günə qədər Şeyx Müfid (413 h.q.), Şeyx Tusi (460 h.q.), İbn İdris (598 h.q.), Əllamə Hilli (726 h.q.), Şəhid Əvvəl, Şəhid Sani, Mühəqqiq Sani, Müqəddəs Ərdəbili, Molla Əhməd Nəraqi, Sahib Cəvahər, Şeyx Ənsari, Şeyx Fəzlullah Nuri, Ayətullah Bürucerdi, Ayətullah Xoi, İmam Xomeyni, Ayətullah Gülpayiqani, Ayətullah Sistani, Ayətullah Məkarim Şirazi və digər böyük alimlər bu məsələyə inanmış və onu fiqhin dəyişməz

prinsiplərindən saymışlar. Tarix boyunca şiə fiqh mənbələrində vilayəti-fəqih mövzusuna dair dörd mindən çox sənəd və dəlil qeyd olunmuşdur. Alimlərin sözlərini daha geniş şəkildə araşdırmaq üçün "Fəqihlərin fiqhi baxışları və vilayəti-fəqihin sahələri" (M.Ə. Qasimi), "İslamda dövlət nəzəriyyəsinin təkamülü" (Ə. Cahanbozorgi), "Qeybət dövründə şiə siyasi düşüncəsi" (Ə.Ə. Pazuki) və "Fəqihin hakimiyyət fəlsəfəsi" (Ayətullah Məmdohi) kimi əsərlərə müraciət etmək mümkündür. Alimlərin icmasına gəldikdə, bu mövzuda da bir çox böyük fiqh ustadları açıq şəkildə vilayəti-fəqih barədə ittifaqın mövcud olduğunu bildirmişlər. Mühəqqiq Kərki (940 h.q.) **"Rəsailul-Mühəqqiq əl-Kərki", "Risələ fi Salatil-Cümə", c.1, s.142**-də vilayəti-fəqih barəsində alimlərin yekdil olduğunu qeyd edir. "Miftahul-Kəramə" müəllifi Məhəmməd Cavad Amili (1226 h.q.) **"Kitabul-Qəza", c.1, s.21**-də bu məsələdə şiə alimlərinin ittifaq etdiyini və bu ittifaqın höccət olduğunu bildirir. Molla Əhməd Nəraqi

**“Əvaidul-əyyam”, s.536**-da vilayəti-fəqihin fiqhin müsəlləmatından olduğunu vurğulayır. Sahib Cəvahər **“Cəvahirul-kəlam”, c.16, s.178**-də vilayəti-fəqihin imamiyyə fiqhində bəlkə də dini zərurətlərdən sayıldığını qeyd edir. Mərhum Naini isə **“Tənbihul-ümmə və tənzihul-millə”** əsərində qeybət dövründə fəqihlərin ümumi naiblik vəzifəsinin (yəni nizamın qorunması, İslamın müdafiəsi və İslam ölkələrinin idarə olunması kimi işlərin) qəti olduğunu bildirir.

## 5) “Vilayət sahibi” olma yolları

“Vilayəti olmaq” məsələsinə gəldikdə, ilk və ən əsas mərhələ zamanın vəlisini tanımaq və ona doğru şəkildə məhəbbət və bağlılıq yaratmaqdır. “Allahım, mənə öz höccətini tanıtdır...” duasında da bu həqiqət vurğulanır. İnsan Allahın vəlisini tanımadığı halda qaranlıqda və azğınlıqda qalar; çünki yalnız vəlini tanımaqla insan öz düşüncəsini, əxlaqını, davranışını və həyat

yolunu ilahi rəhbərin yoluna uyğunlaşdıra bilər. Vəlini tanıyan insan onun ardınca hərəkət edir, doğru yolu tapır və Allahın qoyduğu hədəflərə çatmaq üçün düzgün istiqamətdə addımlayır.

Vilayət sahibi olmağın ikinci yolu Allahın vəlisinin göstərişlərinə əməl etməkdir. Quranda açıq şəkildə buyurulur: "Allaha itaət edin, Peyğəmbərə itaət edin və sizdən olan əmr sahiblərinə itaət edin." Bu ayəyə əsasən, Allahın vəlisinin əmrlərinə tabe olmaq iman şərti kimi təqdim edilir. Buna görə də bir insanın vilayət iddiası etməsi, lakin əməli mərhələdə itaətsizlik göstərməsi mümkün deyil; vilayət iddiası itaət və əməl ilə təsdiq olunur.

Vilayət sahibi olmağın üçüncü yolu vilayətin cazibəsini və gözəlliklərini izah edib yaymaqdır. Necə ki, digər dini hökmlər və onların hikmətləri insanlara açıqlanır, eləcə də vilayət məsələsini izah etmək, onun mahiyyətini və fəlsəfəsini cəmiyyətə çatdırmaq lazımdır. Vilayət yolunda olan şəxs bu həqiqətləri başqalarına anlatmalı, vilayətə inananları möhkəmləndirməli,

inanmayanları isə maarifləndirib doğru yola yönəltməlidir ki, vilayət sahibi heç vaxt tək qalmasın və daim yardımçıları yanında olsun.

Vilayət sahibi olmağın dördüncü yolu vilayət məqamını və vəlinin özünü müdafiə etməkdir. Vəlini tanıdıqdan və onun göstərişlərinə əməl etdikdən sonra insan bilməlidir ki, düşmən heç vaxt boş dayanmaz və daim Allahın vəlisinə və onun məqsədlərinə zərbə vurmağa çalışar. Buna görə də vilayət yolunda olan şəxsin vəzifəsi vilayətin mövqeyini və vəlinin şəxsini müdafiə etməkdir. Müdafiənin forması hücumun növünə uyğun olmalı və təhlükə tam aradan qalxana qədər davam etməlidir. Bu yolda insan malını, canını, övladını və sahib olduğu hər şeyi ortaya qoymağa hazır olmalıdır; necə ki, İslamın ilk dövrlərində böyük şəxsiyyətlər belə etmişdilər. Vilayətin müdafiəsi sahəsində böyük şəxsiyyətlərin davranışına istinad etmək vilayət yolunun mühüm mərhələlərindəndir. Peyğəmbər Əkrəm (s) açıq dəvətə başladığı ilk gündən, o dövrün vəlisi olaraq müxtəlif təhdidlər

və vədlərlə üz-üzə qaldı. Lakin vilayətin müdafiəçiləri başda - Əbu Talib (ə), İmam Əli (ə) və Həmzə Seyyidüş-şühəda kimi böyük kişilər, həmçinin xanımlar içində Xədicə (s) - böyük fədakarlıq göstərdilər və vilayəti qorumaq üçün canlarından, mallarından və ən sevimli varlıqlarından keçməkdən çəkinmədilər. Peyğəmbərdən (s) sonra xilafət və vilayət məsələsinə gəldikdə isə, Qədir-Xum, Mənzilət, Yəvmud-dər kimi mütəvatir hədislərə əsasən, vilayət və rəhbərlik İmam Əliyə (ə) məxsus idi. Lakin bəzi şəxslər təfriqə yaratmaq, təbliğat manipulyasiyası və silah gücü ilə xilafəti zahirdə ələ keçirdilər və əhalinin böyük qismini öz tərəflərinə çəkə bildilər. Bu dövrdə Həzrət Zəhranın (s) vilayət uğrunda göstərdiyi möhkəm dayanışma və fədakarlıq gələcək nəsillər üçün yol işığı oldu; o, vilayəti müdafiə etmək uğrunda həm öz canını, həm də övladı Möhsin (ə) kimi bir körpəni qurban verdi.

## 6) Vilayəti-Fəqihin səlahiyyəti

Vilayəti-fəqihin səlahiyyətlərinə gəldikdə, vilayəti-fəqih məhz Peyğəmbərin (s) və məsum imamların (ə) malik olduğu vilayətin eyni mahiyyətini daşıyır. İmam Xomeyni bu barədə belə izah edir ki, “Peyğəmbər (s) və imamların (ə) malik olduğu vilayəti qeybət dövründə ədalətli fəqih daşıyır” dedikdə, heç kəs belə düşünməməlidir ki, fəqihin məqamı peyğəmbər və imamların məqamı ilə eynidir. Burada söhbət məqamdan yox, vəzifədən gedir. Yəni müzakirə olunan vilayət idarəçilik, icra və hökumət məsuliyyətidir; bu, bir üstünlük deyil, ağır bir vəzifədir. Fəqihin öhdəsində olan işlərdən biri ilahi cəza hökmlərini icra etməkdir. Bu sahədə Peyğəmbərlə (s), İmam Əli (ə) ilə və ya onların təyin etdiyi hakimlərlə fəqih arasında heç bir fərq yoxdur; fəqih məqamca aşağıdır deyə, hökmü daha az tətbiq etməli deyil. Hökuməti idarə edən şəxs kim olur-olsun (Peyğəmbər (s), İmam Əli (ə), onların nümayəndələri və ya dövrün fəqihi) Allahın hökmü eyni şəkildə icra olunmalıdır. Eyni

qayda digər sahələrə də aiddir: vergi toplamaq, xüms, zəkat, cizyə və xərac kimi maliyyə işləri Peyğəmbərin (s), İmam Əlinin (ə) və fəqihin vilayətində mahiyyətcə fərqlənmir. Hökumət qurmaq, idarə etmək və icra səlahiyyəti baxımından da vilayətin mahiyyəti eynidir; burada dərəcə və mərtəbə fərqi yoxdur ki, biri "daha vali", digəri "daha az vali" sayılsın. Vilayət bir funksiyadır və bu funksiya qeybət dövründə şərtləri kamil olan fəqihə verilir **(İmam Xomeyni, Vilayəti-Fəqih, s.50).**

## 7) Vilayəti-Fəqihin şərtləri (müqəddimə)

Vilayəti-fəqihin şərtlərini araşdırmazdan əvvəl gərək baxaq görək Qurani-kərim dini cəmiyyətin rəhbəri üçün hansı əsas meyarları müəyyən edib. Allah-Təala İbrahim peyğəmbəri (ə) çoxsaylı imtahanlardan keçirdikdən və onu daha saf və kamil etdikdən sonra buyurdu: "Mən səni insanlar üçün imam qərar verdim." **(Bəqərə, 124).** Buradakı "imam" yalnız ibadət

məsələlərində rəhbər demək deyil; imam həm dinin, həm də dünyanın rəhbəri, insanları islah və səadətə aparan yolgöstərən deməkdir. İbrahim (ə) soruşdu: “Nəslimdən də bu məqama çatan olacaqmı?” Allah cavabında meyarı açıqladı: “Mənim əhdim zalımlara çatmaz.” Bu ayə göstərir ki, rəhbərlik üçün ilk şərt ədalətdir. **(Ali Rəhbərin çıxışı — Qəzvin, 26/9/1389).**

B) İlahi rəhbərin ikinci əsas şərti elm və dərin bilikdir. İmam Əli (ə) bu meyarı Qurana əsaslanaraq belə izah edir: rəhbərlik yalnız Qurana və sünnəyə ən çox bələd olan şəxsə verilməlidir. O, bu ayəni misal gətirir: “Haqqa doğru yol göstərən şəxs ona tabe olunmağa daha layiqdir, yoxsa özü doğru yolu tapmaq üçün başqasına möhtac olan?” **(əl-İhticac, c.1, s.150).** Bu ayə göstərir ki, rəhbər başqalarına yol göstərən, özü isə heç kimə möhtac olmayan elm sahibidir. İmam Əli (ə) başqa bir ayəyə də istinad edir: “Allah onu seçdi və ona elm və bədən gücü baxımından genişlik verdi.” **(Bəqərə, 247).** Bu ayə Talutun rəhbərliyə seçilməsinin səbəbini

açıqlayır: Allah onu elm baxımından üstün etmişdi. Bu ayələr göstərir ki, rəhbərlik üçün əsas meyar geniş elm və dərin dini bilikdir. Peyğəmbər (s) də buyurub ki, rəhbərlik yalnız elmli və düzgün davranışlı şəxslərə verilməlidir; əks halda işlər dağınıqlığa gedər. Buna görə də vilayət dediyimiz məqam əslində idarəçilik və hakimiyyət məsuliyyətidir və bu məsuliyyət yalnız elmli şəxsə verilir.

C) Üçüncü şərt “qabiliyyət və idarəçilik gücü”dür. Bu həm ağlın hökmüdür, həm də Quranda açıq şəkildə göstərilib. Talutun hökumətə seçilməsi barədə ayədə Allah buyurur: “Allah Talutu sizin üçün rəhbər seçdi.” İnsanlar etiraz etdikdə ki, “O necə bizə rəhbər ola bilər, biz ondan daha layiqik və onun çox malı da yoxdur?” cavab verildi: “Allah onu sizin üzərinizə seçdi və ona elm və bədən gücü baxımından genişlik verdi.” **(Bəqərə, 247).** Buradakı “bədən gücü” təkcə fiziki sağlamlıq deyil; sağlam düşüncə, güclü iradə, idarəetmə bacarığı və məsuliyyət daşımaq gücü də bu məfhumun

içindədir. **(Ali Rəhbərin çıxışı - Konfrans "İslam hökuməti", 10/11/1364).**

Beləliklə, Quranda rəhbər üçün qeyd olunan bu üç əsas meyar (ədalət, elm və idarəçilik qabiliyyəti) şiə fiqhində vilayəti-fəqih üçün qeyd olunan şərtlərlə tam şəkildə üst-üstə düşür. Yəni Quranda imamət üçün qoyulan prinsiplər, qeybət dövründə vilayəti-fəqihin şərtləri kimi davam edir.

## Birinci şərt: Elm və ictihad.

İslam hökuməti qanun hökuməti olduğu üçün rəhbərin ilk və əsas şərti elm və ictihad sahibidir. Çünki qanunla idarə olunan bir cəmiyyətdə rəhbər qanunu bilmədən hökumət edə bilməz. Hədislərdə də qeyd olunur ki, bu cür elm yalnız rəhbər üçün deyil, hər bir insan üçün (hansı vəzifədə olursa-olsun) zəruridir; lakin rəhbərin məsuliyyəti daha ağır olduğuna görə onun elmi səviyyəsi də daha yüksək olmalıdır. Bu xüsusiyyət Əmirəl-möminin Əlinin (ə) kəlamında

açıq şəkildə vurğulanır. O Həzrət İslam cəmiyyətinə rəhbərlik etməyə layiq olan şəxsi belə təsvir edir: “Ey insanlar! Bu işə (rəhbərliyə) ən layiq olan kəs bu işin öhdəsindən ən yaxşı gələn və Allahın hökmünü bu işdə ən yaxşı biləndir.” **(Nəhcül-Bəlağə, xütbə 173).** İmam (ə) burada rəhbər üçün iki əsas sütunu göstərir: biri elmi üstünlük, digəri isə idarəçilik gücüdür. Çünki çox insanlar var ki, elm sahibidirlər, amma idarəçilik qabiliyyətləri yoxdur; eləcə də bəziləri idarəçidir, amma elmləri kifayət etmir. Bu iki xüsusiyyət bir araya gəlmədikcə cəmiyyətin düzgün idarəsi mümkün olmaz. İmam Hüseyn (ə) da Mina xütbəsində bu həqiqəti belə ifadə edir: “İşlərin idarəsi və ilahi hökmlərin icrası Allahı tanıyan və Onun halal-haramına əmanətdar olan alimlərin əlindədir.” **(Tuhaful-uqul, s.172)**. Bu söz göstərir ki, Allah işlərin icrasını və hökmlərin tətbiqini elmli və etibarlı din alimlərinə tapşırmışdır. Həzrət Hüseyn (ə) Kufə əhlinə xitabında rəhbərin xüsusiyyətlərini daha da aydınlaşdıraraq

buyurur: “And olsun canıma! İmam o kəsdir ki, Allahın kitabı ilə hökm etsin, ədaləti bərqərar etsin, haqq dinə bağlı olsun və öz nəfsini Allah qarşısında məsul bilsin.” **(əl-İrşad, c.2, s.39)**. Aydındır ki, Allahın kitabı ilə hökm etmək və ədaləti həyata keçirmək yalnız İslam qanunlarını dərindən bilən, yəni müctəhid olan bir rəhbərlə mümkündür. Buna görə də elm və ictihad vilayəti-fəqihin ayrılmaz şərtidir.

**İkinci şərt: Ədalət və təqva.**

Vilayət üçün əsas şərtlərdən biri ədalət və təqvadır. Burada ədalət xüsusi mənada, insanın daxilində sabitləşmiş mənəvi bir hal kimi nəzərdə tutulur. Bu hal möhkəm olduqda vilayət zədələnməz; çünki rəhbərdən İslamın əmrlərinə və qadağalarına zidd ən kiçik bir davranış belə baş versə, həmin an ədalət şərti aradan qalxır. Ən kiçik zülm, ən kiçik əyrilik, hər cür ayrı-seçkilik, günah və ya vəzifəni tərk etmək ədaləti aradan aparır. Ədalət aradan qalxdıqda

isə rəhbər öz vəzifəsindən avtomatik şəkildə düşmüş sayılır. **(Söhbət - Ali Rəhbər, 10/4/1370).**

İslam rəhbəri (yəni imam və ya vilayət sahibi) mütləq şəkildə ədalətli olmalı və nəfsinin istəklərinə tabe olmamalıdır. Çünki rəhbər nəfsinə uyarsa, azğınlıq və ilahi yoldan sapma qaçılmazdır və bu, cəmiyyətlərin əsas fəsad mənbəyidir. Buna görə də İslam rəhbəri nəfsani meyllərin təsirinə düşməməli, ədalət vasitəsilə özünü dünya tamahından və şəxsi istəklərin təsirindən qorumağı bacarmalıdır. Bu şərtlər İslam mənbələrində (həm Quranda, həm də sünnədə) geniş şəkildə izah olunmuşdur. Bu mövzuda ən açıq dəlillərdən biri Qurandakı bu ayədir: “Zülm edənlərə meyl göstərməyin; yoxsa od sizə toxunar. Allahdan başqa sizin üçün heç bir dost yoxdur və sizə kömək edilməz.” **(Hud, 113).** Zülmkara meyl göstərməyin ən bariz nümunəsi isə fasiq bir rəhbəri hakimiyyətə gətirmək və insanların taleyini onun əlinə

verməkdir. **(Ayətullah Subhani, Məbani-ye hokuməti-islami, s.232).**

Təbərsi "İhticac" kitabında "Vay olsun o kəslərə ki, kitabı öz əlləri ilə yazıb sonra deyirlər: bu Allah tərəfindəndir" ayəsinin **(Bəqərə, 79)** təfsirində İmam Sadiqdən (ə) belə nəql edir: "O fəqihlər ki, özlərini günahdan qoruyur, dinlərini hifz edir, nəfsani istəklərinə qarşı çıxır və öz mövlasının əmrinə itaət edirlər - camaatın onlara təqlid etməsi caizdir. Bu xüsusiyyətlər isə bütün fəqihlərdə deyil, yalnız bəzilərində olur." **(İhticac, c.2, s.458; Vəsailuş-şiə, c.27, s.131).**

Bu hədis açıq şəkildə göstərir ki, rəhbərlik məqamı yalnız o fəqihə məxsusdur ki, özünü tərbiyə etmiş, nəfsinə hakim olmuş, günahdan tam şəkildə uzaq durmuş və Allahın əmrinə tam itaət edən bir şəxsiyyətə çevrilmiş olsun. **(Ayətullah Musəvi Xəlxali, Hakimiyyət dər İslam ya vilayəti-fəqih, s.224–226).**

## Üçüncü şərt: Tədbir və idarəçilik

Vilayət üçün üçüncü əsas şərt dərayət, tədbir və idarəçilik qabiliyyətidir. Hər bir insan adi düşüncə ilə belə anlayır ki, əgər bir fəqih bu ağır və geniş məsuliyyəti daşımaq üçün lazım olan idarəçilik bacarığından məhrumdursa, belə bir vəzifəni öhdəsinə götürə bilməz. Buna görə də fəqih üçün vilayətin sübutunda onun idarəçilik qabiliyyətinə diqqət etmək zəruridir və bu sahədə təsirli olan amillər (məsələn, geniş məlumat, incəlikləri anlama bacarığı, iti zəka, çeviklik, qərar verməkdə qətiyyət və bu kimi xüsusiyyətlər) onda tanınmalıdır. **(Bünyan-e hokumat dər İslam, s.181–182).**

Məsumlardan (ə) nəql olunan rəvayətlərdə də bu xüsusiyyətə xüsusi diqqət yetirilmişdir. Peyğəmbər Əkrəm (s) İslam rəhbərinin əsas xüsusiyyətlərini sadalayarkən buyurur: “İmamət yalnız o şəxsdə düzgün olar ki, onda üç xüsusiyyət olsun: birincisi, onu Allahın günahlarından saxlayan təqva; ikincisi, qəzəbini cilovlayan həlimlik; üçüncüsü isə idarə etdiyi

insanlara qarşı gözəl rəhbərlik - elə ki, onlara qarşı mərhəmətli ata kimi olsun.” **(Kafi, c.1, s.407).** Bu hədis göstərir ki, rəhbərlik yalnız elm və təqva ilə deyil, həm də yüksək idarəçilik bacarığı ilə tamamlanır.

Ayətullah Cavadı Amuli də İslam rəhbərinin seçilməsində bu xüsusiyyətin zəruriliyini belə izah edir: “Mütləq ictihad və fiqhin müxtəlif bablarında fətva vermək üçün lazım olan elmi səlahiyyət, həmçinin İslam ümmətinə rəhbərlik üçün tələb olunan ədalət və təqva ilə yanaşı, rəhbərlik və ölkə idarəçiliyi qabiliyyəti fəqih üçün üçüncü zəruri şərtdir. Şərtləri kamil fəqih yalnız ictihad və tam ədalət sahibi olmaqla kifayətlənmir; o, həm də ölkənin daxili və xarici siyasi-ictimai məsələlərinə dair düzgün baxışa malik olmalı, xarici düşmənlərin hiylələrini yaxşı tanımalı və idarəçilik sənətinə sahib olmalıdır. Çünki idarəçilik təkcə nəzəriyyə ilə mümkün deyil; o, idarəetmə zövqü və tədbir sənəti tələb edir. Necə ki, bir çoxumuz şeirin vəznlərini bilirik, amma bu bilik heç kəsi şair etmir. Şeir bilmək

başqa, şeir yaratmaq isə tam başqa bir istedaddır. Eyni şəkildə, hamımız bilirik ki, ölkə ədalət əsasında idarə olunmalıdır, amma idarəçi olmaq təkcə biliklə deyil, xüsusi qabiliyyətlə mümkündür. Buna görə də hər ədalətli fəqih cəmiyyətə rəhbərlik etməyə layiq deyil; o, elmi şərtlərlə yanaşı, İslam ümmətini idarə etmək üçün lazım olan fitri istedad və qabiliyyətə də sahib olmalıdır.” **(Vilayəti-fəqih, vilayəti-fəqahət və ədalət, s.139–140).**